

Bu gün AFFA -nın Apellyasiya Arbitraj Tribunalının iclası keçirilib. "Dalga tv" xəbər verir ki, aparılmış müzakirələrdən sonra aşağıdakı qərarlar qəbul edilib.

1. AFFA -nın İntizam Komitəsinin “ Qəbələ ” İK-nın rəsmi şəxsləri Zaur Əzizov, Səbuhi Səfiyarlı, Səməd Nəsibov və Səbuhi Qarayev barəsində çıxardığı 29 saylı, 02 mart 2017-ci il tarixli qərar qüvvədə saxlanılsın.

2. 2016/2017 futbol mövsümü çərçivəsində XXV Topaz Premyer Liqasının XX turunun 28 fevral 2017-ci il tarixində keçirilən “Kəpəz” – “ Qəbələ ” oyunu zamanı qeydə alınan

qayda pozuntusuna dair “ Qəbələ ” İK-nın futbolçusu Nika Kvekveskiri barədə AFFA -nın İntizam Komitəsinin qəbul etdiyi 02 mart 2017-ci il tarixli qərar qismən dəyişdirilsin. Barəsində intizam tədbiri kimi 6 aylıq sınaq müddəti təyin olunmaqla, futbolçu verilmiş 3 oyunluq cəzanın qalan müddətini çəkməkdən şərti olaraq azad olunsun. 6 aylıq sınaq müddəti ərzində futbolçu Nika Kvekveskiri analoji hərəkətlərə yol verəcəyi təqdirdə, ona təyin olunmuş intizam tədbiri hazırkı azad olunmuş cəzaya əlavə olunsun.

3. 2016/2017 futbol mövsümü çərçivəsində XXV Topaz Premyer Liqasının XX turunun 28 fevral 2017-ci il tarixində keçirilən “Kəpəz” – “ Qəbələ ” oyununun birinci hissəsindən sonra qeydə alınan qayda pozuntusuna dair “ Qəbələ ” İK-nın hakimi Namiq Hüseynov barədə AFFA -nın İntizam Komitəsinin qəbul etdiyi 02 mart 2017-ci il tarixli qərar qismən dəyişdirilsin. Barəsində intizam tədbiri kimi 6 aylıq sınaq müddəti təyin olunmaqla, hakim verilmiş 5 oyunluq cəzanın qalan müddətini çəkməkdən şərti olaraq azad olunsun. 6 aylıq sınaq müddəti ərzində hakim Namiq Hüseynov analoji hərəkətlərə yol verəcəyi təqdirdə, ona təyin olunmuş intizam tədbiri hazırkı azad olunmuş cəzaya əlavə olunsun.

4. AFFA -nın Hakim-İnspektorlar Komitəsinə bu oyunun təşkili zamanı baş vermiş pozuntu hallarının araşdırılması barədə AFFA -nın Apellyasiya Arbitraj Tribunalına dərhal məlumat verməsi tapşırılsın və gələcəkdə bu cür halların baş verməməsi təmin edilsin.